# HALİDE EDİB ADIVAR VƏ VİRCİNİYA VULF YARADICILIĞINDA QADIN ANLAYIŞI

Əzizə CABAROVA*

**Xülasə:** Bu məqalə Halide Edib Adıvar və Virciniya Vulfun əsərlərində qadın kimliyinin necə qurulduğunu təhlil edir. Hər iki yazıçı patriarxal cəmiyyətin qadağalarına meydan oxuyaraq qadınların ədəbiyyat və intellektual sahədəki rolunu dəyərləndirməyə və təşviq etməyə çalışıb. Adıvar Osmanlıdan Cümhuriyyətə keçid dövründə qadınların millətçilik və ənənələr arasında qarşılaşdığı çətinlikləri işıqlandırır, Vulf isə 20-ci əsr Britaniyasında qadınların məruz qaldığı məhdudiyyətləri tənqid edərək onların intellektual və iqtisadi müstəqilliyini müdafiə edir. *Hər iki yazarın əhəmiyyətli* əsərlərinin təhlili, qadınların təhsil, azadlıq və patriarxal cəmiyyətdəki sıxıntılarla bağlı ortaq mövzularını üzə çıxarır və onların öz kimliklərini tapmaq və azadlıq yolundakı universal mübarizəsini vurğulayır.
***Açar Sözlər****: Qadın Kimliyi, Patriarxal Cəmiyyət, Ədəbiyyat, İntellektual Azadlıq*

***The Concept of Woman in the Works of Halide Edib Adıvar and Virginia Woolf***

**Summary**: This article analyzes how female identity is constructed in the works of Halide Edib Adivar and Virginia Woolf. Both writers challenge the restrictions of patriarchal society, attempting to evaluate and promote the role of women in literature and intellectual fields. Adivar sheds light on the struggles faced by women during the transition from the Ottoman Empire to the Republic, navigating the complexities of nationalism and tradition, while Woolf critiques the limitations faced by women in early 20th-century Britain, advocating for their intellectual and economic independence. The analysis of both authors' significant works uncovers common themes regarding women's education, freedom, and the struggles within patriarchal society, emphasizing their universal fight to find their identity and pursue freedom.
***Keywords***: *Female Identity, Patriarchal Society, Literature, Intellectual Freedom*

## Giriş

Qadın kimliyi və onun ədəbiyyatdakı təmsili uzun müddətdir ki, ədəbiyyat tənqidçilərinin diqqət mərkəzindədir, xüsusilə də cinsiyyət, sosial mövqelər və gender strukturlarını sarsıdan əsərlərdə buna daha sıxlıqla rast gəlinir. Halide Edib Adıvar və Virciniya Vulf kimi müasir dövrün tanınmış yazıçıları, bu mövzunu öz əsərlərində dərin və çoxsahəli şəkildə araşdırmış, qadınların cəmiyyətdəki məhdudiyyətlərini sarsıtmağa çalışmışlar. Hər iki müəllifin əsərləri, qadınların intellektual və sosial həyatda qarşılaşdıqları maneələri açıq şəkildə tənqid edərək, patriarxal ideologiyaların zəruriliyini sual altına alır.

Halide Edib Adıvar, Osmanlı İmperiyasının tənəzzülü və yeni Cümhuriyyətin qurulması dövründə qadınların qarşılaşdığı çətinlikləri dərindən analiz edir. O, qadınların təhsil hüququ, siyasi iştirak və cəmiyyətdəki rolunun dəyişməsi məsələlərini müzakirə edərək, qadınların ənənəvi patriarxal dəyərlər və müasir millətçilik arasındakı çətin yaşam tərzini təqdim edir.

Virciniya Vulf isə, 20-ci əsrin əvvəllərindəki İngiltərədə qadınların intellektual və iqtisadi müstəqillik uğrunda verdiyi mübarizəni dərindən təhlil edir. Vulf, qadınların öz kimliklərini tapmalarının qarşısındakı maneələri yalnız xarici cəmiyyətin təzyiqləri ilə deyil, həm də daxili, psixoloji faktorlardan – ailə quruluşu, mental sağlamlıq və yaradıcılıq azadlığı kimi məsələlərlə əlaqələndirir. Onun əsərləri, qadınların təhsil və sərbəstlik sahələrindəki mövcud əngəlləri aradan qaldırmağa çalışan mürəkkəb və çoxistiqamətli bir mübarizəni ortaya qoyur.

### 1. Osmanlı İmperiyasından Cümhuriyyətə Qədər Qadınların Cəmiyyətdə Rolunun Dəyişilməsi

***"Biz elə bir qrup insanlarıq ki, həmişə cəmiyyət tərəfindən görməzlikdən gəlinmiş və kişilər tərəfindən 'saçları uzun, ağlı qısa' kimi alçaldıcı ifadələrlə məsxərəyə qoyulmuşuq. Biz bu yalnış düşüncəni təkzib etməyə qətiyyətliyik. Uğur yolunda irəliləyərkən nə kişiliyi***

* Bakı Avrasiya Universiteti, ezizecabarova@gmail.com

***qadınlığa, nə də qadınlığı kişiliyə üstün tutmadan mümkün olduğu qədər müqavimət göstərəcəyik.****"("Mukaddime", Şükûfezâr, 1301, Çakır, 1996: 26)*

600 illik tarixi ilə orta-yaxın Şərqi özündə birləşdirən Osmanlı imperiyası qadın haqları və qadının toplumdakı rolu və kimliyi məsələsində Qərbi olduqca geridən izləyirdi. Qadının rolunun sadəcə ailə məişət məsələləri ilə limitləndiyi bu patriarxal cəmiyyətdə qadının sadəcə yaxşı ana və həyat yoldaşı olması isə inka rolunmaz bir fakt kimi qalırdı. Ənənəvi quruluşunu uzun bir müddət qoruyub saxlayan bu toplumda dəyişikliklər sadəcə imperiyanın son illərinə təsadüf edirdi. II Sultan Mahmudun hakimiyyətində həyata keçirilən islahatlara qədər Osmanlıda qadın haqqları məsələlərinin qaldırılması mümkünsüz hal almış idi. Osmanlı imperiyasında modernləşmə islahatlarının aparılması isə Tənzimat dövrü əlaqələndirilir. Digər islahatlardan fərqli olaraq bu dövr hərb deyil, sosial-iqtisadi dəyişikliklərin mərkəz olması ilə seçilirdi. Bununla yanaşı həmin dövrdə Fransız inqilabının təsirlərini mənimsəmiş Gənc Osmanlılar 19cu əsrin ortalarında imperiyanın müasirləşməsi və Qərbin **inkişaf** etmiş sosial və siyasi strukturlarından faydalanaraq imperiyanın varlığını davam etdirməyə çalışırdılar. Lakin, bu modernləşmə anlayışı eyni zamanda cəmiyyətdəki strukturları da köklü şəkildə dəyişdirməyi hədəfləyirdi. Qadınların cəmiyyətdəki yeri və qadın haqqları mövzusu da diqqət mərkəzində idi. Və 1867-ci il qadınların təhsil alması və gücü mövzusunda ilk addımlardan biri hesab olunan **"Müdafaa-i Hukuk-ı Nisvan Cemiyeti"** (qadınlarn haqqlarını müdafiə dərnəyi) fəaliyyətə başlamasına şahid olur. Lakin, bu dövrdəki feminist düşüncələr, müasir feminist hərəkatların sərt şəkildə müdafiə etdiyi bərabər hüquqlar və azadlıqlar kimi radikal tələblərdən daha ehtiyatlı və mülayim bir yanaşma sərgiləmişdir. Gənc Osmanlılar, qadınların cəmiyyətdə daha çox yer alması lazım olduğunu müdafiə etsələr də, bu hüquqların ənənəvi cəmiyyət strukturları və dəyərləri ilə uyğun bir şəkildə verilməsi lazım olduğu fikrini də qəbul etmişlər. Məhz qeyd olunan feminist addımlar mərkəz paytaxtda görülə bilən hal alır və sadəcə müəyyən bir qrup qadınlar üçün əlçatan vəziyyətdə çevrilir. (Safarian, 2007: 144)

19cu əsrin sonu təhsil sahəsində yeni dəyişiklərə şahid olur və 1869-cu ildə qəbul olunan, 1870-ci ildə tədbiq olunan Milli Təhsil Nizamanaməsi Osmanlı imperiyasında təhsil sisteminin təməlini qoymuş hesab olunur.Qız uşaqlarının təhsil alması üçün isə güclü zəmin yaratmış olan bu hadisə Qız müəllimlər məktəbinin açılması öz zirvəsini yaşayır. Tənzimat dövründən öncə məktəblərdə təhsil sadəcə dini mövzuları əhatə edirdi və patriarxal cəmiyyətin dayatdığı müəyyən mövzuların kənarına çıxmırdı. Osmanlı imperiyasının İslami və patriarxal quruluşuna baxmayaraq artıq məktəblərdə qızlar öz əks cinsləri ilə təhsil ala bilmə hüququ əldə etmiş olurlar.

Tənzimat dövründə yeni yaradılan məktəblərin nəticəsi olaraq qadın qəzetlərinin və jurnallarının sayı artmağa başlayır və qadınlar artıq yeni qadın kimiliyi haqqında yazılar yazaraq qadınların təhsil almaq haqları və azadlığı məsələlərinə toxunaraq onların sosial həyatda görünürlüyü ideyasını genişləndirməyə cəhd edirdilər. Afinada jurnalını nəşr etdirən Lundi Kazi kimi müsəlman qadın yazıçı və jurnlalist həm qadınların azadlığı, həm də konstitusiya məsələlərinə işıq tuturdu. Bu jurnallarda isə əsasən məcburi nikah, qadın ticarəti və çoxarvadlılıq sərt şəkildə tənqid edilirdi. Məhz bununla bağlı 1917-ci ildə ailə qanununda cariyəlik və çoxarvadlılıq məsələsi ələ alınaraq, uzun illər boyunca buna məruz qalan qadınlara haqqları bərpa edilmiş olunur.Tənzimat dövründə qadınlar üçün atılan addımlardan ən əsası isə miras hüquqlarının bərpa edilməsi məsələsi idi.

Türk modernləşmə tarixinin zirvəsi hesab olunan II Məşrutiyyət dövrü qadınların sosial həyata daxil edilməsi məsələsi ilə seçilərək həm də Cümhuriyyətin təməllərinin qoyulduğu bir dövr kimi qəbul edilir. Qadın dərnəklərinin və jurnallarının sayının sürətli şəkildə artdığı bu dönəmdə Qadınları Dünyası adlı jurnal qadın haqlarını müdafiə edən ilk feminist jurnal kimi tarixə düşmüşdür. Baş yazarı Nigar xanım olan bu jurnal qadınların artıq

ana və ev qadını rolundan çıxaraq toplumda yeni statuslar qazanması mübarizəsinə öz töhfəsini vermişdir.

Dünyanın hər yerində feminizmin müharibələrlə, xüsusilə də Birinci Dünya Müharibəsi ilə dərin əlaqəsinin olduğu bir mənalı fikir olaraq qəbul edilir. Bu müharibə zamanı kişi əhalisinin böyük bir hissəsi ya cəbhədə olduğunu nəzərə alsaq , nəticədə qadınlar işçi qüvvəsini ələ alaraq kişilərlə bərabər maaş tələb etməyə başladılar. Birinci Dünya Müharibəsindən sonra, Osmanlı İmperiyasının süqutunun və İstiqlaliyyət Müharibəsinin nəticəsi olaraq 1923-cü ildə Türkiyə Cümhuriyyəti quruldu. Belə şəraitdə, 1920-ci illər qadınların mülki hüquqlarının rəsmi şəkildə tanınması ilə gender probleminin həlli istiqamətində ciddi təşəbbüslər gətirdi. 1934-cü ildə isə qadınların azadlıq uğrundakı mübarizəsi siyasi səhnəyə keçdi. 5 dekabr 1934-cü ildə Konstitusiyaya düzəliş edilərək qadınlara milli seçkilərdə səsvermə və parlament seçkilərində namizədliyini irəli sürmək hüququ verildi.Yeni modern Türk qadını modeli imajını formalaşdıran ən əsas fiqurlardan Ziya Gökalp, Halide Edib ve Ahmet Ağaoğlu hər zaman qadınların ictimai və siyasi məsələlərdə aktiv şəkildə iştirakını təşviq etmişdir. Karagöz (2016)

## 2. Halide Edib Adıvar və Yaradıcılığında Qadın Anlayışı

Kozmopolit, feminist, yazar, jurnalist və respublikabın üsyankar qızı kimi qəbul olunan Halide Edib Adıvar dövrünün mübahisəli fiqurlarından biri idi. (Durakbaşa, 2000) 1884-1964cü illərdə Osmanlı imperiyasından Cümhuriyyətin modernləşməsi keçidində yaşayan yazar şərq və qərb mədəniyyətinin bariz mübarizəsinin sərgiləndiyi ailədə böyümüşdür.Amerikan qızlar kollecini bitirən Halide Edib Adıvar Virciniya Vulf kimi ailəsinin yüksək statusu sayəsində digər qadınlardan fərqli şəkildə təhsil almaq, müxtəlif mədəniyyətlərə sahib ölkələrə səfər edərək intellektual fərdlərlə görüşmək onu öz haqlarını dərk edən, aydın bir gənc kimi formalaşmasına səbəb olmuşdur. Ənənəvi dəyərlərini ona aşılayan nənəsi himayəsində böyüyən Halide, atasını qərb yönümlü düşüncə və planlarında da yer alırdı və qeyd etdiyim mədəniyyətlərarası konflikt burada zirvəsini görmüş olur. Osmanlı imperiyasında adiləşmiş hal alan çoxarvadlılıq haqlarından istifadə edən atasının bundan şəxsən yararlanmış olması Adıvarın həyatının bir çox mərhələsində cariyəlik və çoxarvadlılıq məsələlərini inkar edərək, qadınların üzləşdiyi bu haqsızlığa göz yummamışdır və öz şəxsi həyatında isə bunu təkidlə rədd edərək öz həyat yoldaşı ilə evliliyini sonlandırmışdır.

Qurucularında biri olduğu Qadınların Tərəqqisi Cəmiyyətində iştirakı və 1907-1908-ci illər içərisində Halide Salih adı altında Tanin qəzetində məqalələrini qələmə almağa başladı, məqalələri əsasən qadınların təhsili və rifahının yaxşılaşdırılmasına diqqət çəkməkdə idi. Ingiltərəyə göndərdiyi Türk qadınlarının gələcəyi adlı yazısı da eyni problemlərə işıq saçaraq yetərincə diqqət çəkməsi ilə ölkəsini tərk edərək Misirə köçməsinə səbəb olmuşdur və biz bu xatirələrini Bənövşəyi Salxmımlı Ev kitabında izləyə bilirik. Türk milli kimliyinin formalaşmasında xüsusi rolu olan Ziya Gökalpdan təsirlənən yazarlardan biri olan Adıvar, 1912-ci ildə qurulan Türk ocağı cəmiyyətinə qoşulur və bu illər ərzində yeni türk qadın konsepsiyası üzərində işləməyə başlayır. Bərabər hüquqlara sahib olan bu yeni qadın kimliyini özünün Yeni Turan kitabında canlandırdı.

*Türk qadınının rəsmi olaraq qəfəs arxasında yaşamalı olduğu bir dövrdə Halidə Edib ayaqlarındakı qadağa zəncirlərini qırmış, bir vətəndaş olaraq çiyinlərində hiss etdiyi ağır vəzifəni daşımaqdan yorulmamışdı. (Nadir Nadi, Cumhuriyet 1960 qtd. in Durakpaşa, 2000, p.152).*

Halide Edib bütün romanlarında qadınların siyasi, sosial,mədəni və iqtisadi həyatlarındakı məhdudiyyətləri təsvir edir və kişilərdən aşağı bir səviyyədə olmalarını şiddətli şəkildə qınayırdı.Əsərlərində bu toplumsal cinsiyyət normlarını şüursuzca qəbullanan qadınlarla yanaşı azadlıqları uğrunda hərşeylərini qurban verə biləcək qadın obrazları da yaradır. Yazarın romanları İnci Enginün tərəfindən 3 dövrə bölünür: birinci dövrü Handan ,

ikinci dövrü Atəşdən köynək və son dövrü Milçəkli dükkan təmsil edir. (Enginün 1989: 17). Birinci dövrdə yazılan yazarın feminist romanı Səviyyə Talip həyat yoldaşını tərk edərək sevgilisi ilə yaşayan Seviyyenin patriarxal bir toplumda qadın olaraq üzləşdiyi çətinlik lər ilə yanaşı, İngiltərədə təhsil alıb ölkəsinə dönən Fahirin qərb mədəniyyəti ilə köklü dəyişimi nəticəsində həyat yoldaşını konservativ bir şərq qadını kimi bəyənməməsi və onu dəyişdirməyə çalışmasından bəhs edir.

1912ci ildə qələmə aldığı və öz həyatını təsvir etdiyi iddia olunan Handan romanı qəhrəmanların bir-birinə yazdığı məktublar ilə bir qadının hisslərini təsvir etməyə çalışır. Osmanlı patriarxal cəmiyyətində qadın olmağın çətinliklərini və onlara tədbiq olunan məhdudiyyətləri bilərək kişi mərkəzli toplumda istər təhsil sahəsində istərsə də ictimai sahələrdə gücünün fərqində olan bir qadın obrazı yaratmağa çalışır. Handanın mübarizəsi, qadınların cəmiyyətdəki yerini və gücünü dəyişdirmək istədiyi halda qarşılaşdıqları çətinlikləri göstərir. Handan, cəmiyyətdəki kişi-dominant strukturlara qarşı çıxmağa çalışsa da, bu mübarizənin çox çətin olduğunu və o, kişilərin müəyyən etdiyi ənənəvi qadın rollarından tamamilə azad ola bilmir. Handanın güclü iradəsinə və azadlıq arzusuna baxmayaraq, onun patriarxal cəmiyyətin təzyiqlərindən qaçmağın nə qədər çətin olduğunu göstərir.

Qurtuluş müharibəsinə birbaşa şahid olan Halide Edib bu illəri özünün "Atəşdən Köynək" adlı əsərindəki Ayşə obrazında canlandırır və Ayşə müharibə illərində xalqı maarifləndirmək üçün çalışan, məhz Halide kimi cəbhədə tibb bacısı kimi xidmət edən, milli mübarizə uğrunda sevgisini ikinci plana atan və vətəninə sarsılmaz bağlılıqla xidmət edən fədakar bir qadındır.Yazıçının əsərlərindəki qadın obrazları, kişi obrazlarından üstün olmasa da, kişilər kimi güclü, qətiyyətli və bir xarakterə malikdir. Burada verilən mesaj, o dövrün cəmiyyətində qadınların kişilərə heç bir təhlükə yaratmamasıdır. Əksinə, qadınlar kişilərlə çiyin-çiyinə duraraq vətənin qurtuluşu uğrunda mübarizə apara bilərlər.

### 3. Qərbdə Qadın Anlayışının Formalaşması və Virciniya Vulf Yaradıcılığı

Əsrlər boyunca cins və gender terminləri davamlı olaraq bir-biri ilə qarışdırılıb. Bu bir-birinə qarışmış iki ifadə XVIII əsrdən etibarən geniş şəkildə ədəbi, feminist, mədəni, siyasi və dini müzakirələrin mərkəzinə çevrildi.Simon de Buvuar (1949) qeyd etdiyi kimi: *"One is not born, but rather becomes a woman." (Qadın doğulmur, qadın yaranır.)* Cins doğulduğumuz deyil, insanların toplum tərəfindən yaradılmış strukturda necə formalaşması və davranmasıdır. Bu struktur kişilərin dominant və aqressiv, qadınların isə daha emosional və itaətkar olması ideyasını irəli sürür. Və nəticədə, illərdir ənənəvi cinsiyyət iyerarxiyasında qadınların həyatda qala bilməsi üçün bu normaları qəbullanması müstəsna hala çevrilmişdir.Gender fərdlərin bioloji xüsusiyyətləri ilə açıqlana bilməyən, cəmiyyət və adət-ənənələr tərəfindən cinslərə aid edilən anlayışdır.

Keçmişdə qadınların vəzifəsi açıq-aydın şəkildə ev işlərini görmək, uşaqlara qulluq etmək, evi təmizləmək, ailəyə yemək bişirmək idi. Bu rollar və vəzifələr doğulduqları andan onlara təbii olaraq verilmiş məsuliyyətlər deyil əksinə zaman keçdikcə patriarxal rejim tərəfindən mədəni və ideoloji təzyiq nəticəsində qurulur və bu vəzifələr qadınlara təbii həyat tərzi kimi aşılanır. Əslində, patriarxal cəmiyyətin kökü bəşər tarixinin ən əvvəlindən mövcud idi. Bunu mifologiyada qadını nizamı pozan, insana bəla və problem gətirən biri kimi də adlandırılmasından anlaya bilərik. Orta əsrlərə nəzər saldıqda isə qadınların yenə də kişilərin lehinə olan patriarxal cəmiyyətin qurbanları olduğunu görə bilərik. Qadınların rolu məişət mühitində ailəsi üçün fədakar və qayğıkeş olmaq, kişilərin isə sosial həyatda aktiv olub ailəsinə çörək gətirmək idi. İntibah dövründə qadınlar üçün ayrılan rollar və yer orta əsrdən çox da fərqlənmirdi. Onlar üçün uyğun hesab edilən yeganə iş tikiş tikmək, musiqi alətində ifa etmək, ev işləri görmək olduğu üçün qızlar təhsildən məhrum idilər. XVII əsrdə hakim olan puritan əxlaqı bu vəziyyəti daha da sərt hala saldı.

On doqquzuncu əsrdən etibarən, qadınların hüquqları, rolları və həyatı haqqında təsəvvürlər kəskin şəkildə dəyişdi. Və yanaşmaların dəyişməsinə səbəb olan bir çox faktor var idi. Onlardan biri olan feminizm qadın hüquqlarının dəyişməsində və inkişafında mühüm rol oynamışdır. Bir fenomen kimi köklü tarixi olan söz fransızca qadını təsvir etmək üçün femme sözündən yaranır və sonuna –ism şəkilçisi əlavə edilməklə, gender məsələsi ilə bağlı siyasi və ya ictimai ideologiyaya istinad edir.

*" Qadın davranışlarında inqilab etmək vaxtıdır - onlara itirilmiş ləyaqətlərini qaytarmaq və onlara bəşəriyyətin bir parçası kimi dünyanı dəyişmək üçün, ilk olaraq özlərini dəyişməklə başlamağın vaxtı olduğunu bildirmək lazımdır. Sabit yerli əxlaqi dəyərləri dəyişdirməyin zamanı artıq çatıb."* Wollstonecraft, M. (1792)

Liberal feminist hərəkatının əhəmiyyətli nümayəndələrindən biri hesab olunan Meri Uolstounkraft, dövrün İngiltərəsində patriarxal cəmiyyəti tənqid etməsi ilə tanınır. Hesab etmək olar ki, qadınların sosial arenadakı mövqeyi və Fransa İnqilabını tənqid etməsi müəllifi öz dövrü ilə müqayisədə radikal bir mövqeyə daşıdı. Müəllif məşhur Qadın hüquqlarının əsaslandırılması (A Vindication of the Rights of Woman) əsərində Fransa İnqilabının qeyri-bərabər və haqsız münasibət sərgilədiyini bildirir. Uolstounkraftın kitabı həm də qadınların emosional olduğu stereotiplərini tənqid edən və qadınların kişilər tərəfindən qiymətləndirilməməsini müdafiə edən bir əsərdir. Onun fikrincə, qadının müstəqil fərd olmasına şərait yaradacaq ən mühüm amillərdən biri qadının iqtisadi cəhətdən özünü təmin edə bilməsidir. Uolstounkrafta görə, qadınların ictimai sahələrdə iştirak etmələri və söz sahibi olmaları və özlərini inkişaf etdirmləri üçün iqtisadi azadlığa nail olmaları çox vacibdir. Beləliklə, qadınlar ailə institutu adı altında qanuni yolla özlərini satmaq məcburiyyətində qalmayacaqlar.

Feminizmin mərkəz olduğu müzakirlərin nəticəsində çoxlu kiçik həcmli hərəkatlar baş versə də, üç mühüm dalğa meydana gəldi. Birinci dalğa Nyu-Yorkda 1848-ci ildə keçirilən Birinci Seneka Konvensiyaları ilə başladı və XX əsrin əvvəllərinə qədər davam etdi. Qadınlar öz statuslarını qul statusu ilə əlaqələndirdilər və köləliyi ləğv etməyin yollarını axtardılar. Həmin fəallara "abolitionistlər" deyirdilər. Məşhur fəallar və abolitionistlər Suzan B. Entoni, Elizabet Kedi Stanton, Lukretiya Mott qadınlar üçün sosial, mənəvi və siyasi hüquqların, xüsusən də səsvermə hüququnun əldə edilməsində rəhbərlik etdilər.Qadınlara səsvermə hüququ qazandırmaq fikri ilə başlayan birinci feminist hərəkat zaman keçdikcə hədəflərini ardıcıl olaraq yenilədi İlk feminist dalğa Uolstounkraftın "Qadınların Hüquqlarının Təminatı" kitabında irəli sürdüyü tələblər üzərində qurulmuşdur. Ümumiyyətlə, bu tələblərə qadınların seçki hüququ, təhsildə bərabər imkanlar, qadınların mülkiyyət hüquqları daxil idi.

Xüsusən də 19-cu əsrin sonlarına doğru qadınların seçki hüququna yiyələnməsinə yönələn hərəkatlar başladı və tarixə Sufrajistlər hərəkatı olaraq keçdi. Seçki hüququ təkcə qadınların cəmiyyətə qəbulu kimi deyil, həm də qadınların həyatını yaxşılaşdırmaq üçün vacib hesab olunurdu. İngiltərədə sufrajistlər hərəkatının ən böyük fiqurları Pankhurst ailəsi, Emili Deyvis idi. Emili Deyvis qadınların təhsilinə töhfə verdi, qadınların kişilərlə eyni təhsil almasının məcburi olduğunu irəli sürdü.Qadın Hüquqları və Qadın Seçki Hərəkatındakı siyasi irəliləyişlər öz bəhrələrini verməyə başladı və qadınların ədəbi həyatında yeni bir yol yarandı. Ayrılmaz hüquqlar axtarışından sonra qadınlar indi öz kimliklərinin ən qiymətli hüququ hesab olunan, özünü ifadə etmək hüququnun arayışına başladılar. Britaniyada qadınlara səsvermə hüququnun verilməsindən bir il sonra, 1929-cu ildə Virciniya Vulfun Özünə aid bir otaq kitabının nəşri qadın ədəbi hərəkatında bir irəliləyiş idi.

Vulf ilk növbədə qadınların uğurlu yazar olması üçün lazım olan intellektual düşüncəyə malik olmadığı konsepsiyasını tənqid etməklə başlayır. O, iddia edir ki, qadınların həddindən artıq yükü daşımaları, təhsildən məhrum olmaları, kişilərdən maddi asılılıq və şəxsi "öz otağının" olmaması kimi digər sosial çatışmazlıq onların uğur qazanmamasının səbəbidir. O, iddia edir ki, əgər qadınlar şəxsi məkan və maliyyə müstəqilliyi ilə təmin olunara, tam

potensial yazıçı kimi özünü ifadə edəcək gücə və istedada sahibdirlər. Birinci dalğa feminizmi, qadınlara siyasi və sosial hüquqların verilməsi arqumenti ilə başlasa da, qadınların yazmağa başlaması fikrini oyatmış Virciniya Vulf ilə kulminasiya nöqtəsinə çatdı. Ədəbiyyatda qadınların zülmü və bu patriarxal despotizmi məhv etmək üsulları, birinci dalğadan sonrakı feministlərin əsas qayğısına çevrildi.

Virciniya Vulf bədii ədəbiyyatda üstünlük təşkil edən klassik yazı üslubunu rədd edən qeyri-konformist yazarlardan biri olaraq qəbul edilir. Vulfa görə, yazarlar əslində səthi olan hadisələrin dəqiq təsvirinə diqqət yetirərək, həyatın əsas mahiyyətini gözdən qaçırırlar.Özünə aid bir otaq (1929) Virciniya Vulfun gender məsələlərinin işlənməsi baxımından ən vacib əsəri hesab olunur..Özünə aid bir otaq  başlığının məqsədi sadəcə fiziki təcridi göstərmək deyil, qadınları məişət məsuliyyətlərindən azad olması, evin mələyi rolundan qaçmasına təşviq etməkdir. Qadınlar yazmağı səslərini eşitdirə biləcəkləri bir vasitə, ictimai sahələrə giriş üçün yol, xarici dünya ilə əlaqələrini daha möhkəm hala sala biləcəkləri ideya kimi qəbul etməlidirlər. Ceyn Ostin və Şarlotta Brontedən başlayaraq, qadınlar niyə Hərb və Sülh yaza bilmir mövzusuna qədər enir.

Viktoriyan dövründən müasir dövrə keçid çox böyük ictimai və siyasi dəyişikliklərin baş qaldırmasına səbəb oldu və bu dəyişikliklər o dövrün ədəbiyyatında da öz əksini bilavasitə tapdı, o cümlədən müasir ədəbiyyatın nümayəndəsi hesab olunan Vulf,  sağlığında baş verən müasir dövrün sosial sistemini tənqid edə biləcəyi və əsas qayğılarını əks etdirə biləcəyi bir roman olan Xanım Dalloveyi qələmə aldı. Xanım Dalloveydə qadınların çarəsiz vəziyyətinə münasibəti ilə tanınan feminist qadın yazıçı kimi qadın zülmünün səbəblərini açır və o dövrün qadınlarının həyatlarını əldə etmək və öz kimliklərini dərk etmək üçün qarşılaşdıqları mübarizələrdən bəhs edir. Bu əsər feminist personajların vasitəsilə yazarın fikirlərini aydın və açıq şəkildə əks etdirdiyi əsas nümunəsi olmuşdur.

Mayaka doğru Virciniya Vulfun avtobioqrafik romanı hesab olunur və o bu kitabda bəzi avtobioqrafik şərhlərini verir. Mayaka doğru kitabında Vulf, qadınlar qarşı açıq-aşkar bərabərsizliyin mövcud olduğu cəmiyyətdə öz yerlərini və hüquqlarını tapmaqda çətinlik çəkən iki qadın, yəni xanım Remzi və Lily Brisko haqqında hekayəni nəql edir. Mətndə biz Vulfun Viktoriya Qadını və Yeni Qadının müxtəlif tərəflərini üst-üstə qoyaraq müasir cəmiyyətdəki mövcud olan üstün və ənənəvi gender stereotiplərini tənqid edir.

**Nəticə**

Qərb və Şərq kimi bir-birindən kəskin şəkildə fərqlənən mədəniyyətlərin təmsilçiləri olan Virciniya Vulf və Halide Edib Adıvar toplum tərəfindən formalaşmış cinsiyyət normalarının dəyişdirilməsi uğrunda mübarizə aparmışlar. Hər ikisi də müxtəlif iki tarixi dövr arasında yaşamağın çətinliklərinə şahid olmuş olsalar belə, Adıvarın yaradıcılığında iki mədəniyyətdən yetərincə təsirləndiyini  görmüş oluruq. Lakin müqayisə etdikdə isə Virciniya Vulf daha çox modernizmin təsirlərini tez mənimsəmiş kimi görünməkdədir. Hər iki yazar qələmə aldığı ən vacib əsərlərində qadın fiqurunu mərkəzə qoyaraq, onun rifahının yaxşılaşdırması probleminə diqqəti çəkmişlər.

**ƏDƏBİYYAT**

De Beauvoir, S. (1949). *The second sex* (C. Borde & S. Malovany-Chevallier, Trans.). Vintage Books, 2011.

Edib, H. (1912). *Handan*. İstanbul: Matbuat-ı Edebiyye

Edib, H. (1913). *Seviyye Talip*. İstanbul: Matbuat-ı Edebiyye

Edib, H. (1922). *Ateşten gömlek*. İstanbul: İleri Matbaası.

Göknar, E. (2013). Turkish-Islamic feminism confronts national patriarchy: Halide Edib's divided self. *Journal of Middle East Women's Studies, 9*(2), 33.

Hooda, M. (2018). The evolution of gender roles in English literature: A comparative analysis from the Victorian era to the present day. *Research Review International Journal of Multidisciplinary*, *3*(11), 1344.

Karagöz, B. (2016). *Osmanlı İmparatorluğu'ndan Türkiye Cumhuriyeti'ne kalan bir mesele: Kadınların konumu* [An issue from the Ottoman Empire to the Republic of Turkey: The status of women]. *Karadeniz*, (29), 33.

Nadir Nadi, Cumhuriyet 1960 qtd. in Durakpaşa, 2000,.152).

Nazlıpınar, M. D. (2008). *The female exploration in a patriarchal society as reflected in Virginia Woolf's The Voyage Out and Halide Edip-Adıvar's Handan* (Master's thesis). Kütahya University, Kütahya, Turkey.

Nsaidzedze, I. (2017). An overview of feminism in the Victorian period [1832-1901]. *American Research Journal of English and Literature*, *3*(1), 1-20

Safarian, A. (2007). On the history of Turkish feminism. *Iran and the Caucasus, 11*(1), 141-151.

Sömez, E. (Year). *Novelist Halide Edib Adıvar and Turkish Feminism*. *Die Welt des Islams, XIV*(I-4).

Şükûfezâr. (1886). *Mukaddime.* **Şükûfezâr**. Qtd. in Çakır, S. (1996). *Osmanlı Kadın Hareketi.* İstanbul: Metis Yayınları, p. 26.

White, J. B. (2003). *State feminism*. *NWSA Journal, 15*(3), 40-63.

Wollstonecraft, M. (1792). *A vindication of the rights of woman* (C. A. L. T. G. A. M. W. Trans.). Dover Publications.

Woolf, V. (1925). *Mrs. Dalloway*. Harcourt Brace.

Woolf, V. (1927). *To the lighthouse*. Harcourt Brace.

Woolf, V. (1929). *A room of one's own*. Hogarth Press.